Dünya keçici bir ləzzətdir. Dünya ləzzətinin ən xeyirlisi saleh qadındır

Abdullah bin Amrdan (Allah onların hər ikisindən razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Dünya keçici bir ləzzətdir. Dünya ləzzətinin ən xeyirlisi saleh qadındır".

[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, dünya nemətlərinin ləzzətləri müəyyən bir zaman ötdükcə bitir, saleh həyat yoldaşı isə bu dünyada olan ən gözəl nemətdir, o qadın ki, əri ona nəzər salanda sevinər, əmr etdikdə itaət edər, ərinin yoxluğunda onun şərəf-ləyaqətini və var-dövlətini qoruyar.

http://sunnah.global/hadeeth/az/show/5794